*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri № 3, 2026 Səh. 382-388* *ISSN 2224-9257*

https://doi.org/10.62837/2026.3.382

**MƏLİKOVA NAIBƏ NİYAZ QIZI**
**Bakı Xoroeoqrafiya Akademiyası**
**“Baletmeyster” kafedrasının müəllimi**

# TANQO RƏQSİNİN TƏŞƏKKÜL TARİXİNƏ DAİR

**Xülasə:** Təqdim olunan məqalədə tanqo rəqsinin tarixindən səhnəyə çıxışından geniş bəhs olunur. Tanqoda hərəkətlər təkrarolunmaz və improvizasiya xarakteri daşıyır. Argentina tanqosu çevik və elastik addımlar, qəfil dayanışlar, istiqamət dəyişiklikləri ilə xarakterizə olunur. Bal tanqosunda isə hərəkətlər stakkato (qısa və kəskin), pişik kimi çevik, vizual olaraq vurğulu və ritmik olur.

Argentina tanqosunda addımlar sərbəstdir, rəqqasələr musiqinin ritminə uyğun fərdi ifadələr yaradırlar. Milonga ritmində addımlar daha sürətli və kəskin, vals ritmində isə daha yumşaq və ritmik olur. Bal tanqosunda isə addımlar əvvəlcədən müəyyən edilmiş qaydalara uyğun, ardıcıl və texniki olaraq dəqiq icra edilir.

Tanqo rəqsi hiss və emosiyanın vizual ifadəsidir. Rəqqaslar bədən dili, baş, qol və ayaq hərəkətləri vasitəsilə musiqinin dramatik strukturunu əks etdirirlər. Argentina tanqosu sosial kontekstdə oynanır, emosional qarşılıqlı əlaqə əsas rol oynayır. Bal tanqosu isə səhnə və yarışlarda dramatik effekt və texniki təmizlik üçün optimallaşdırılmışdır. Argentina tanqosunun əsas xüsusiyyəti improvizasiya azadlığıdır. Tərəfdaşlar musiqiyə, mühitə və bir-birinə uyğun addımlar və hərəkətlər yaradırlar. Bal tanqosunda improvizasiya azdır, əsas diqqət texniki dəqiqlik və ritmin qorunmasına yönəlib.

Həm dünya, həm də Azərbaycan bəstəkarlarının yaradıcılığında tanqo yaradıcılıq, emosional ifadə və texniki innovasiya üçün əhəmiyyətli rol oynamasından, tanqonun ritmik və melodik xüsusiyyətləri bəstəkarlara həm səhnə əsərlərində, həm də sosial musiqi sahələrində geniş imkanlar yaratmasından, həm milli musiqi ənənələri ilə sintez edilməsindən, həm də beynəlxalq musiqi təcrübəsinə inteqrasiya olunmasından geniş söhbət açılır. Həm dünya, həm də Azərbaycan bəstəkarlarının yaradıcılığında tanqo yaradıcılıq, emosional ifadə və texniki innovasiya üçün əhəmiyyətli rol oynamasından, tanqonun ritmik və melodik xüsusiyyətləri bəstəkarlara həm səhnə əsərlərində, həm də sosial musiqi sahələrində geniş imkanlar yaratmasından, həm milli musiqi ənənələri ilə sintez edilməsindən, həm də beynəlxalq musiqi təcrübəsinə inteqrasiya olunmasından geniş söhbət açılır.

**Açar sözlər:** Argentina tanqosu, Bal tanqosu, Habanera, ritm, klassik balet, Məhəbbət tanqosu baleti

“Tanqo” sözünün mənşəyi haqqında bir neçə versiya mövcuddur. Bu rəqsin formalaşması müxtəlif mədəniyyətlərin – Avropa, Afrika və Latın Amerikası

təsirlərinin qarşılıqlı əlaqəsi nəticəsində baş vermişdir. Versiyalardan birinə görə, tanqo İspaniyadan gələn flamenko rəqs ənənələri ilə bağlıdır. XIX əsrin ortalarında (1850-ci illərdə) Kadiz şəhərində yaranmış Əndəlus tanqosu klassik flamenko formalarından biri hesab olunur. Bu tanqo gitara müşayiəti ilə ifa edilir və həm mahnı, həm də rəqs formasında mövcuddur. Lakin Əndəlus tanqosu Argentinaya birbaşa rəqs kimi deyil, yalnız mahnı forması şəklində yayılmışdır.

Başqa bir versiya isə tanqonun Afrika mənşəli olması ilə bağlıdır. Bu versiyaya əsasən, tanqo zənci kölələrlə birlikdə Amerikaya gətirilmiş Tangano adlı Afrika rəqsindən qaynaqlanır. Tangano, Əndəlus tanqosu və Argentinanın Buenos-Ayres şəhərinin yoxsul məhəllələrində yaranan rəqslər Kuba mənşəli Habanera ilə birləşərək yeni bir rəqs forması yaratmışdır. Bu forma sonradan Milonga adı ilə tanınmağa başlamışdır. Braziliyada zənci əhali arasında bu söz "sözlər", "söhbət" mənasını verirdi. Uruqvayda "milonga" "şəhər mahnısı", Buenos-Ayres və onun ətrafında isə "bayram", "rəqs" və ya bu tədbirlərin keçirildiyi yer anlamında işlədilirdi. "Müasir dövrdə "milonga" sözü üç əsas mənada işlədilir: Tanqo rəqs gecələri; Musiqi üslubu; Rəqs janrı". (1. səh. 15)

Tanqonun mənşəyi təxminən 1860-1880-ci illərə aiddir. Bu rəqs Argentinanın paytaxtı Buenos-Ayres şəhərinin kənar məhəllələrində yaranmışdır.

Belə bir mühitdə yaranan musiqi də ziddiyyətlərin qarışığı idi: küçələrdə doğulan bu musiqidə qeyri-adi, çevik ritm, yeni həyata canatma ilə yanaşı həsrət, kədər və daxili gərginlik hiss olunurdu. Tanqonun musiqi əsasını payada ənənələri (gitara ilə müşayiət olunan improvizə şeirlər), ölümcül sevgi hekayələri, kreol duelləri və məhv olmuş talelər təşkil edirdi. Eyni zamanda bu musiqi və rəqs Habanera, Milonga və Afrika mənşəli Candombe ənənələrinin sintezindən yaranmışdır.

"Tanqo qapalı vəziyyətdə, tərəfdaşların yaxın təması ilə, dövr üçün cəsarətli və təxribatçı şəkildə rəqs edilirdi. Buna görə də ilk dövrlərdə tanqo "layiqli" evlərdə və cəmiyyətlərdə qəbul olunmurdu. O, həm sevilir, həm də qınanırdı. Tanqonun tanınma yolu çətin olmuşdur" (1. səh. 28)

Zaman keçdikcə tanqo daha səmimi və emosional forma aldı. Yeni, gözəl melodiyalar Buenos-Ayresin gənc və şəhərli kafelərinə yol tapdı. Tanqonun "təmizlənmiş" variantı artıq daha geniş və hörmətli tamaşaçı kütləsinin diqqətini cəlb etməyə başladı. Ekzotik və emosional bu rəqs əvvəlcə Parisdə dəb oldu, daha sonra isə Köhnə Dünyanın iri şəhərlərində sürətlə yayıldı.

Yalnız başqa qitədə tanınıb seviləndən sonra tanqo Argentinanın yüksək cəmiyyətinə yol tapa bildi. O dövrdə dünyanın ən zəngin ölkələrindən biri olan Argentinada tanqo nəhayət ki, milli mədəni irsin ayrılmaz hissəsinə çevrildi.

"Tanqonun mənşə şərtləri – Buenos-Ayres əvvəllər əyalət liman şəhəriydi. 1776-cı ildə ispaniyalı III Çarlzın Fərmanı ilə yeni ərazi vahidinin – Rio de la Plata krallığının mərkəzinə çevrildi. Argentinada dəmir yolu görünür, hər şey dövlətin

daha da iqtisadi inkişafına səbəb oldu. Lakin bu inkişafa işçi qüvvəsi çatışmazlığı mane oldu. O zaman hökumət müavinətlərin köməyi ilə Avropadan mühacir axını açdı. Bunlar əsasən İtaliya və İspaniyadan, eləcə də Almaniya, Portuqaliya, Polşa və digər ölkələrdən olan gənc kişilər idi" (1.səh.7).

Bir sözlə, Tanqo getdikcə rəqs ritualına çevrildi. Tanqo rəqsinin iki əsas növü vardır: Argentina Tanqosu və Bal Tanqosu. Bu iki rəqs eyni deyildir və bir-birindən həm tarixi, həm də texniki xüsusiyyətlərinə görə fərqlənir.

Argentina Tanqosu XIX əsrin sonlarında Buenos-Ayresdə sosial rəqs kimi yaranmışdır. Onun əsas xüsusiyyətləri aşağıdakılardır: Mövqe və qucaqlaşma: Rəqqaslar bir-birinə yaxın dayanır, qucaqlaşma rahat və elastikdir. Doğaçlama və hərəkət: Rəqs tamamilə improvizasiya əsaslıdır. Hərəkətlər musiqiyə uyğun olaraq dəyişir və fərdi tərzdə ifa olunur. Tarazlıq və addımlar: Rəqqaslar çox çevikdir, bədən və ayaqlar arasında harmoniya qorunur. Musiqi ilə uyğunluq: Rəqs musiqi ilə tam sinxron olur, hər bir ritm və pauza diqqətlə ifadə edilir. Argentina Tanqo sosial rəqsdir: insanlar milonga adlanan klub və rəqs tədbirlərində toplaşır, bir-birilə tanqo rəqs edir, ünsiyyət qurur və əylənirlər. Sosial tanqoda rəqs edənlər üçün əsas məqsəd qarşılıqlı əlaqə və musiqi ilə ifadədir. Argentina Tanqo həm də səhnədə ifa edilə bilər. Səhnə versiyası sosial tanqoya bağlıdır, amma hərəkətlər daha parlaq, səhnələşdirilmiş və bəzən ekssentrik olur. Belə performansları adi milongada görmək mümkün deyil.

Tanqo musiqisinin əsasını təşkil edən vahid bir fikir birliyi yoxdur. Musiqişünasların bir versiyasına görə, tanqo musiqisi Candombe, Habanera, Mazurka, Polka və Valsın qarşığı kimi yaranmışdır. Başqa bir versiyaya görə isə, tanqonun kökləri Habanera, Candombe və Əndəlus tanqosuna əsaslanır.

Habanera təxminən 1825-ci ildə Havananın ətraflarında yaranmışdır. Bu musiqi qara qulların ritmləri ilə İspan mahnı ənənələrinin qarışığından meydana gəlmişdir. Habanera, Paris və Argentinaya yol taparaq tanqoya əhval-ruhiyyə və melodik xüsusiyyət vermişdir. Məsələn, Jorj Bizenin "Karmen" operasındakı məşhur Habanera parçası tanqonun ritmik və emosional xarakterinə oxşardır.

Candombe Argentinada yaşayan qaradərililərin ritual rəqsi idi. Bu musiqi Bantu və Katolik dini elementlərini birləşdirir və gizli məclislərdə ifa olunurdu. Candombe ritmləri tanqonun tarixi inkişafında mühüm rol oynamışdır.

Tanqo musiqisi əsasən dörd saymaqla yavaş və davamlı ritm üzərində qurulur. Vals musiqisi klassik 1-2-3 ölçüsünə əsaslansa da, tanqoda rəqqasələr adətən yalnız müəyyən "dəfə"ləri rəqs edir və nadir hallarda bütün hesabları ardıcıl yerinə yetirirlər. Milonga isə tanqonun sadə addımlarına əsaslanan, daha sürətli bir rəqsdir. Tanqo rəqs prinsipləri həm tanqo, həm vals, həm də milonga üçün eyni qalır. Beləliklə, fərqli melodiyalar eyni prinsiplər əsasında rəqs edilə bilər. Milongada musiqi ümumiyyətlə, aşağıdakı sxem üzrə ifa olunur: 4 Tanqo, 3-4 Vals, 4 Tanqo, 3 Milonga.

Tanqo yalnız musiqi deyil, həm də unikal rəqs sənəti kimi formalaşıb. Argentina tanqosu və Bal tanqosu fərqli olsa da, hər iki növün ifasında bir sıra ortaq xüsusiyyətlər mövcuddur. Argentina tanqosunda tərəfdaşlar yaxın qucaqlaşmada dayanırlar, bu, rəqs zamanı maksimal yaxınlıq və emosional əlaqə yaradır. Bal tanqosunda isə mövqe daha sərtdir, rəqqasların bədənləri müəyyən formalara uyğun durur, vizual təsir vurğulanır.

pTanqo yalnız rəqs və sosial əyləncə deyil, həm də bədii musiqi yaradıcılığı üçün zəngin mənbədir. Argentinada tanqonun inkişafı və populyarlığı bəstəkarların yaradıcılığı ilə birbaşa bağlıdır. Tanqonun bəstəkar yaradıcılığında rolu bir neçə istiqamətdə özünü göstərir: Yeni melodiyalar və ritmlər yaratmaq: Bəstəkarlar Candombe, Habanera, Vals və Milonga kimi fərqli musiqi ənənələrindən ilham alaraq, tanqonun unikal ritmik və melodik strukturlarını formalaşdırmışlar.

Tanqonun bəstəkar yaradıcılığına verdiyi imkanlara gəldikdə qeyd edək ki, bəstəkarlar tanqonu müxtəlif orkestr alətləri üçün yazaraq musiqinin geniş səslənməsini təmin ediblər. Xüsusilə bandoneon tanqonun simvolik aləti kimi bəstəkarlara ritmik və melodik zənginlik yaratmaq imkanı verib. Musiqi janrlarının qarışığı: Habanera, Candombe, Milonga və digər musiqi formalarının tanqoya inteqrasiyası bəstəkarların yaradıcılığında yeni janr və ritmik kombinasiyaların yaranmasına yol açıb. Təkrarolunmaz interpretasiya: Tanqoların orkestr ifaları fərqli musiqi interpretasiyaları ilə zənginləşir. Hər bir orkestr bəstənin ritmini və dinamizmini öz tərzində şərh edə bilir.

Tanqo yalnız rəqs və sosial əyləncə deyil, həm də bədii musiqi yaradıcılığı üçün zəngin mənbədir. Argentinada tanqonun inkişafı və populyarlığı bəstəkarların yaradıcılığı ilə birbaşa bağlıdır.

Tanqo yalnız Argentina və Avropa musiqisi ilə məhdudlaşmır, həm də Azərbaycan bəstəkarlarının yaradıcılığında öz təsirini göstərmişdir. Azərbaycan musiqi mədəniyyəti dünya və Avropa musiqi ənənələrini milli ornamentlər və ritmlərlə birləşdirərək unikal səslər yaratmışdır. Tanqonun Azərbaycan musiqisinə inteqrasiyası bir neçə istiqamətdə mümkün olmuşdur. Azərbaycan bəstəkarları tanqonu xarici musiqi elementləri kimi mənimsəmiş və onu milli musiqi ənənələri ilə birləşdirmişlər. Tanqonun ritmik və melodik strukturu bəstəkarlar üçün yaradıcı improvizasiya və eksperiment imkanı yaratmışdır. Rəqs və musiqi elementləri birləşdirilərək konsert və səhnə əsərlərində, həmçinin rəqs musiqisi üçün əsərlərdə istifadə edilmişdir. Tanqo ritmi və melodiyası əsərlərə emosional zənginlik gətirir, hiss və gərginlik yaratmaq musiqi duyğusunun ifadəsi üçün istifadə olunur.

Astor Piyatsollonun tanqo musiqilərinin əsasında libretto və quruluşçu-xoreoqrafı Rusiyanın xalq artisti Liliya Sabitova Azərbaycan Respublikasının Xalq artisti Kamilla Hüseynova və Xalq artisti Gülağasi Mirzəyevin ifasında “Məhəbbət tanqosu” baletinə quruluş verir. Uzun illərdir ki, bu balet tamaşa Azərbaycan Opera və Balet teatrının səhnəsində oynanılmaqdadır.

Bundan savayı Azərbaycan Respublikasının Xalq artisti Təranə Muradova Argentina tanqosunu yüksək səviyyədə ifa etmiş və onu ekranlaşdırmışdır. Tanqo Azərbaycan bəstəkarlarının yaradıcılığında xarici və milli musiqi elementlərinin sintezi kimi çıxış edir. Bu, həm milli musiqi mədəniyyətinin zənginləşməsinə, həm də Azərbaycan musiqisinin dünya musiqi aləmində tanınmasına şərait yaratmışdır.

Həm dünya, həm də Azərbaycan bəstəkarlarının yaradıcılığında tanqo yaradıcılıq, emosional ifadə və texniki innovasiya üçün əhəmiyyətli rol oynayır. Tanqonun ritmik və melodik xüsusiyyətləri bəstəkarlara həm səhnə əsərlərində, həm də sosial musiqi sahələrində geniş imkanlar yaratmışdır. Tanqo həm milli musiqi ənənələri ilə sintez edilmiş, həm də beynəlxalq musiqi təcrübəsinə inteqrasiya olunmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI

1.Марчук, В. А. История развития аргентинского танго. Camito. Дата обращения: 26 октября 2024.

2. .История танго. A bailar (12 сентября 2012). Дата обращения: 26 октября 2024.

## К ИСТОРИИ СТАНОВЛЕНИЯ ТАНЦА ТАНГО

**Ключевые слова:** аргентинское танго, бальное танго, хабанера, ритм, классический балет, балет «Танго любви».

**Резюме:**

В представленной статье подробно рассматривается история танца танго и его выход на сцену.

Движения в танго уникальны и импровизационны. Аргентинское танго характеризуется ловкими и гибкими шагами, внезапными остановками и изменениями направления. Движения в бальном танго стаккато (короткие и резкие), кошачьи, визуально акцентированные и ритмичные.

В аргентинском танго шаги свободны, танцоры создают индивидуальные выражения в ритме музыки. В ритме милонги шаги быстрее и резче, тогда как в ритме вальса шаги мягче и ритмичнее. В бальном танго шаги выполняются в соответствии с заранее установленными правилами, последовательно и технически точно.

Танго – это визуальное выражение чувств и эмоций. Танцоры используют язык тела, движения головы, рук и ног, чтобы отразить драматическую структуру музыки. Аргентинское танго исполняется в социальном контексте, где эмоциональное взаимодействие играет центральную роль. Бальное танго, напротив, оптимизировано для драматического эффекта и технической чистоты на сцене и на соревнованиях. Главная особенность аргентинского танго – свобода импровизации. Партнеры создают шаги и движения, которые

находятся в гармонии с музыкой, окружающей обстановкой и друг с другом. В бальном танго импровизация минимальна, акцент делается на технической точности и ритме. Освещается значимая роль танго в творчестве как мировых, так и азербайджанских композиторов, где оно выступает важным средством художественного самовыражения, эмоциональной передачи и технической инновации. Подчёркивается, что ритмические и мелодические особенности танго предоставили композиторам широкие возможности как в сценических произведениях, так и в сфере социальной музыки, а также способствовали его синтезу с национальными музыкальными традициями и интеграции в международную музыкальную практику. Освещается значимая роль танго в творчестве как мировых, так и азербайджанских композиторов, где оно выступает важным средством художественного самовыражения, эмоциональной передачи и технической инновации. Подчёркивается, что ритмические и мелодические особенности танго предоставили композиторам широкие возможности как в сценических произведениях, так и в сфере социальной музыки, а также способствовали его синтезу с национальными музыкальными традициями и интеграции в международную музыкальную практику.

**MALIKOVA NAIBA**

**ON THE HISTORY OF THE FORMATION OF THE TANGO DANCE**

**Keywords:** Argentine tango, ballroom tango, habanera, rhythm, classical ballet, Tango of Love ballet.

**Abstract:**

The presented article provides a comprehensive discussion of the history of the tango dance and its emergence on the stage. Tango movements are unique and improvisational. Argentine tango is characterized by agile and flexible steps, sudden stops, and changes of direction. Ballroom tango movements are staccato (short and sharp), cat-like, visually accented, and rhythmic.

In Argentine tango, the steps are free, with dancers creating individual expressions to the rhythm of the music. In the milonga rhythm, the steps are faster and sharper, while in the waltz rhythm, the steps are softer and more rhythmic. In ballroom tango, the steps are performed according to predetermined rules, consistently and technically precisely.

Tango dance is a visual expression of feeling and emotion. Dancers use body language, head, arm, and foot movements to reflect the dramatic structure of the music. Argentine tango is performed in a social context, with emotional interaction playing a central role. Ballroom tango, on the other hand, is optimized for dramatic effect and technical purity on stage and in competitions. The main feature of Argentine tango is the freedom of improvisation. Partners create steps and

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 382-388*

movements that are in harmony with the music, the environment, and each other. Ballroom tango has little improvisation, with the emphasis on technical precision and rhythm.

It examines the significant role of tango in the works of both world and Azerbaijani composers, highlighting its importance as a means of creative expression, emotional communication, and technical innovation. The article emphasizes that the rhythmic and melodic characteristics of tango have offered composers broad opportunities in both stage works and social music genres, while also facilitating its synthesis with national musical traditions and its integration into international musical practice.

It examines the significant role of tango in the works of both world and Azerbaijani composers, highlighting its importance as a means of creative expression, emotional communication, and technical innovation. The article emphasizes that the rhythmic and melodic characteristics of tango have offered composers broad opportunities in both stage works and social music genres, while also facilitating its synthesis with national musical traditions and its integration into international musical practice.

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent, Leyli Əliyeva**